# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ

sınaq imtahanı iştirakçısının
kompüter vasitəsi ilə keçirilən imtahanlar üçün

# YADDAŞ KİTABÇASI

*(magistraturaya qəbul imtahanına hazırlaşanlar üçün)*

Aşağıdakıları imtahana gətirmək qadağandır:



2025

İmtahan nəticələrini www.dim.gov.az internet səhifəmizdən öyrənə bilərsiniz!

**İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:**

1. Siz imtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlməli (imtahan binası, imtahanın tarixi və vaxtı haqqında məlumat imtahana buraxılış vərəqəsində göstərilmişdir), özünüzlə diyircəkli qələm və aşağıdakı sənədləri gətirməlisiniz:
   - **şəxsiyyət vəsiqəsi**;
   - **imtahana buraxılış vərəqəsi.**
2. **İştirakçı aşağıdakı hallarda imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqədən az vaxt qalmış gəldikdə;
   - imtahana içkili vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
3. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.
4. İmtahan zalında texniki qurğularla (monitor, klaviatura, qulaqlıq və s.) ehtiyatlı davranın.

**İŞTİRAKÇININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:**

1. İmtahan zalına daxil olarkən sənədlərinizi təqdim edin və qeydiyyatdan keçin.
2. İmtahan zalında sizin üçün ayrılmış kompüterin qarşısında əyləşin və ekrandakı göstərişləri diqqətlə izləyin.
3. Ekrandakı şəxsi məlumatların düzgün qeyd olunduğunu diqqətlə yoxlayın. Hər hansı bir uyğunsuzluq aşkar etdikdə zal nəzarətçisinə müraciət edin.
4. İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olmaq üçün ayrılan vaxt tamamlandıqdan sonra imtahan başlanır.
5. İmtahanda iştirakçının xarici dili fənni üzrə dinləyib-anlama, oxuyub-anlama, yazı bacarıqlarının səviyyəsi, informatika üzrə bilikləri və ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür) yoxlanılır.
6. **İmtahanın müddəti 3 saat 30 dəqiqədir.** İmtahan müddətinin **ilk 3 saatı** test tapşırıqlarının cavablandırılmasına, son **30 dəqiqəsi** isə **yazı işinin (essenin) yerinə yetirilməsinə** ayrılır.
7. İmtahanda xarici dil üzrə 20, informatika üzrə 25 və ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsini yoxlayan 50, ümumilikdə 95 test tapşırığı təqdim

olunur. Xarici dil blok üzrə tapşırıqların 2-i, digər bloklar üzrə isə 5-i açıq tipli test tapşırıqlarıdır.

**Diqqət!**
**1-5-ci suallar dinləyib-anlama bacarığını yoxlayan qapalı formalı test tapşırıqlarıdır.**
6-cı və 11-ci tapşırıqların hər biri üzrə təqdim olunan 4 fikrin hamısına düzgün cavab verildikdə tapşırıq 1 balla, 3 fikrə düzgün cavab verildikdə 0.5 balla, digər hallarda isə 0 balla qiymətləndirilir. Digər tapşırıqlar üzrə isə hər düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavablar toplanılan ballara təsir göstərmir. Test tapşırıqları üzrə toplanıla biləcək maksimal bal 95-ə bərabərdir.

8. İmtahanın başlanması elan edilən andan test tapşırıqlarının cavablandırılması üçün ayrılan vaxtdan səmərəli istifadə edin. Cavabların qeyd olunması üçün sərf olunan vaxt da bu müddətə daxildir.
9. Nəzarətçi "İmtahan başlandı!" elan etdikdən dərhal sonra dinləmə mətninin olduğu audioqurğunu işə salır. Qurğudakı dinləmə mətninin olduğu audio fayl səsləndirilən zaman audiotəlimatçı öncə sizə dinləmə mətni üzrə təqdim olunan **(1-5-ci)** tapşırıqlarla tanış olmaq üçün 2 dəqiqə vaxt verir. Bundan sonra dinləmə mətni ilk dəfə səsləndirilir. Mətnin ilk səsləndirilməsindən sonra audiotəlimatçı sizə tapşırıqlarla bir daha tanış olmaq üçün yenə 2 dəqiqə vaxt verir. Sonra mətn 2-ci dəfə səsləndirilir. Bundan sonrakı vaxt ərzində həm dinləmə mətni üzrə təqdim olunan tapşırıqları, həm də digər tapşırıqları cavablandırırsınız.

**DİQQƏT!** Dinləmə mətninin 2 dəfədən az və ya 2 dəfədən çox səsləndirilməsi qadağandır.
**DİQQƏT!** Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, imtahan nəticələriniz ləğv olunacaqdır.

10. Hesablamaları və qeydləri aparmaq üçün imtahanda sizə verilən xüsusi formalı qeyd vərəqindən istifadə edə bilərsiniz.
11. İmtahanın başlandığı andan **3 saat sonra** siz təqdim olunan 2 mövzudan birini seçərək 150-200 sözdən ibarət esse yazmalısınız.
12. Yazı işi şərti kodlar əsasında anonim surətdə yoxlanıldığından özünüzü tanıtmaq məqsədilə hər hansı qeyd aparmaq, özünüz və ya yaxınlarınız, müəllimləriniz və s. barəsində məlumat yazmaq olmaz. Əks təqdirdə esseyə görə heç bir bal verilməyəcək və yazı işi "0" balla qiymətləndiriləcək.
13. Esse maksimum 5 balla qiymətləndirilir.
14. İmtahan üzrə toplanıla biləcək maksimal bal 100-ə bərabərdir.
15. **"İmtahan başlandı" elan edildikdən 30 dəqiqə müddət keçənədək imtahandan çıxmağa icazə verilmir.**

**İŞTİRAKÇIYA QADAĞANDIR:**

- saxta sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;

- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

**DİQQƏT!** İştirakçının imtahana qadağan edilmiş vasitə, vəsait və ya əşya gətirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.

**DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız, içməli su istisna olmaqla), siqaret gətirmək;
- imtahan başlandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq, danışmaq, kiməsə kömək etmək və ya kiminsə köməyindən istifadə etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqası üçün ayrılmış kompüterə baxmaq və ya öz kompüterinə başqasının baxmasına şərait yaratmaq;
- imtahan suallarını kağız daşıyıcılar vasitəsi ilə imtahan zalından çıxartmaq;
- **"İmtahan başlandı" elan edildikdən 30 dəqiqə müddət keçənədək imtahandan çıxmaq.**

Belə hallar aşkar olunarsa, iştirakçı imtahandan xaric olunacaq və onun imtahan nəticələri ləğv olunacaqdır. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

DİM-in iştirakçının imtahan qaydalarına zidd hərəkətini imtahandan sonra da aşkar etmək üçün müxtəlif üsulları vardır.

İştirakçı öz üzərinə götürdüyü öhdəlikləri pozduqda və xüsusi araşdırmalar nəticəsində müəyyən pozuntular (saxta sənəd təqdim etmə, köçürmə, köçürməyə şərait yaratma, imtahana öz yerinə başqasını göndərmə, qaydalara zidd hərəkətlərə və digər saxtakarlıqlara yolvermə) aşkar edildikdə onun imtahan nəticələrinin ləğv olunması və onun haqqında müvafiq inzibati-hüquqi tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Əgər imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin və ya DİM nümayəndəsinin zala gəlməsini tələb edin.

Nəzarətçi müəllimlər qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. İmtahanın başlandığı elan edildikdən sonra sizin onlara sual verməniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin. İmtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərə baxılmayacaqdır.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***